

# Qismәti şәhidlik zirvәsi olan Cavad

***44 günlük haqq savaşımızda göstәrdiyi hünәrlә adını şanlı zәfәr tariximizә yazan Vәtәn qeyrәtli minlәrlә qәhrәman oğlanlardan biri dә Cavad İbadovdur. 1996-cı il dekabrın 10-da Masallı şәhәrindә dünyaya göz açan bu, Vәtәn sevdalısı orta mәktәbi bitirdikdәn sonra 2014-cü ildә Azәrbaycan Ordusunda hәrbi xidmәtә gedib. Öz Vәtәnini göz-bәbәyi kimi qorumaqla, yolunda canını belә fәda etmәyә hәmişә hazır durub.***

Hәyatda başlıca istәyi yağıdan qisas almaq olan Cavad Cabir oğlu әsgәri borcunu layiqincә yerinә yetirdikdәn sonra könüllü olaraq "N" saylı hәrbi hissәdә vә Daxili Qoşunların Xüsusi Tәyinatlı Dәstәsindә MAXE kimi qulluq edib. İkinci Qarabağ müharibәsindә Füzulinin, Hadrutun azadlığı uğrunda ağır ölüm-dirim savaşında böyük rәşadәt göstәrib. Oktyabrın 16-da şәhidlik zirvәsinә ucalıb. Xeyli müddәtdәn sonra, yәni 29 noyabr 2020-ci ildә Masallı şәhәr qәbiristanlığında canından әziz tutduğu torpağa tapşırılıb. Ölümündәn sonra Füzulinin, Cәbrayılın, Xocavәndin, Kәlbәcәrin azadlığı uğrunda medallara layiq görülüb

Bәli, şәrәfli ölümü әsl qәhrәmanlıq mәktәbi kimi tarixә yazılan Cavad cismәn aramızda olmasa da, mәnәn qәlblәrdә yaşayır, hәr an insanlar tәrәfindәn ehtiramla xatırlanır. Qәrinәlәr boyunca da, belә olacaq. Vәtәn uğrunda şәhid olanlar heç zaman ölmürlәr...

***Zәfәr Orucoğlu, AJB üzvü***